# POEZİYADA ÇİN OLAN ARZULAR

## Bu məktub təkcə təsəlli deyil, dərdin bölüşdürülmə formasıdır

**Ayrı-ayrı ədiblərin yaradıcılığında siyasi lirika nümunələrinə rast gəlinməsi təbii haldır. Çünki sənətkar da xalqın övladı, yaşadığı ölkənin vətəndaşı olmaqla ictimai-siyasi hadisələrə biganə qala bilmir, özünün haqq səsini poeziya nümunələri vasitəsilə elə-aləmə car çəkir. Əlbəttə ki, şairlərin yaradıcılığında özünə yer alan siyasi lirika örnəkləri dövrün ictimai-siyasi ab-havasını özündə əks etdirməklə, həm də xalqın, millətin taleyüklü məsələlərində mühüm rol oynayan siyasi amilləri ədəbi müstəviyə gətirir.**



Şakir Albalıyev,
*AMEA-nın aparıcı elmi işçisi, filologiya elmləri doktoru, dosent*



XX əsrin 80-ci illərinin sonları - 90-ci illərin əvvəlləri sovet dövlətinin süqutundan sonra Azərbaycanın dövlətçilik təhlükəsi ilə üzləşdiyi gərgin ictimai-siyasi dövr artıq tarixin yaddaşına gömüb.

***Min illəri keçib gələn millətin***
***Kitablarda adı pəsdən oxunur.***
***O yaşayan məşəqqətin, zillətin***
***Tarixi tərs, altdan-üstdən oxunur.***

Mahirə Nağıqızı "Heydər baba dastanı" şeirinə bu bəndlə başlanğıc verməklə əvvəlcə tarixə ədəbi-bədii ekskurs edir, "min illəri keçib gələn millət" olmaqla kitablarda adı keçən dövlətçilik tariximizi yad edir, daha sonra isə göstərir ki, məşəqqətli, zülmətli illərin tarixinə obyektiv baxış lazımdır, yoxsa ki, "tərs altdan-üstdən vurmaqla" - səhv, yanlış fikirlər səsləndirməklə cəmiyyəti, müasirlərimizi və gələcək nəsillərimizi düzgün maarifləndirə bilmərik. Əslində, mənə elə gəlir ki, şairə məhz bu amili düşünərək də, misraların dili ilə tarixə, ictimai-siyasi şəraitə aydınlıq gətirməyi qarşısına məqsəd qoymuşdur.

***Tale küskün, düşmən zalım, umud yox,***
***Ər gərəkdi: ürək isti, baş soyuq.***
***Ha deyək ki, filan-filan oğluyuq,***
***Əhval olan halı-qəsddən oxunur.***

Diqqət edin: "Tale küskün, düşmən zalım, umud yox" dediyi bu misrada müəllif 1990-cı illərin əvvəllərində ölkəmizin üzləşdiyi ağır, dözülməz ictimai-siyasi vəziyyətə işarə edir. Bu gərgin durumda küçələrə axışıb, pafosla "Cavanşirəm, Babəkəm, Nəbiyəm, Koroğluyam, Azərbaycan oğluyam" tipli sözləri əzbərçilik yolu ilə oxumaqla, publika qarşısında bu cür emosional fikirlərlə çıxış etməklə ("Ha deyək ki, filan-filan oğluyam" oxumaqla) xalqı, milləti, vətəni fəlakətdən, siyasi burulğandan çıxarmaq, xilas etmək olmaz. Daha doğrusu, quru sözlərlə, publika önündə pafoslu çıxışlarla xalqın başını yastığa qoymaq, xalqın başını qatmaq olmaz. Bu, ölkənin taleyi məsələsidir və bu ağır məqamda bizə "ər gərəkdir: ürək isti, baş soyuq" deyir şairə.

Ər - meydanda duruş gətirə bilən, xalqı düşdüyü ağır ictimai-siyasi böhrandan qurtara bilən, xilaskar ər, kişi obrazı gərəkdir deyir ədib. O ər ki, ürəyi isti olsun - yəni ürəyi xalq üçün yanan - əriyən, xalqını, millətini, vətənini candan sevib-istəyən istiqanlı bir oğul olsun. O ər ki, başı soyuq olsun - yəni hadisələrə dəlicəsinə, çılğıncasına, qızğıncasına teztav reaksiya verib, sözünün dalını-əvvəlini fikirləşməyən birisi yox, hadisələrə soyuq başla, ağıllı düşüncəylə yanaşıb, hadisələrin gedişindən soyuq başla baş çıxaran olsun və xalqı, vətəni də soyuq - düşüncəli başla, aydın zəkasıyla düşdüyü burulğanda xilas eləsin. Xalqımızın məsəli də var: acıqlı başda ağıl olmaz. Acıqlı sözü burada qızğın - hadisələrdən emosiyaya qapılıb özündən çıxan və qızğın (isti) başla hərəkət edib səhv addım atan baş sahibinə işarə edir. Məhz bu məntiqlə - bu xalq düşüncəsi ilə çıxış edən şairə M.Nağıqızı da ər gərəkdi ki başı soyuq ola, lazım gələndə qızğın başla yox, soyuq başla - təmkinlə, düşüncəylə yanaşıb, düzgün siyasi qərarlar verən ər deyir. Məhz o dövrdə belə bir ər - belə siyasi iradə sahibi Xalqımızın Böyük oğlu Heydər Əlirza oğlu Əliyev idi:

***Haqq işini görmək üçün qayıtdın,***
***Haqqa güman vermək üçün qayıtdın.***
***Xalqa inam vermək üçün qayıtdın,***
***Bu tarixdir, bir nəfəsdən oxunur.***

Bu misralarla Ulu Öndərin 2-ci dəfə hakimiyyətə qayıdışını - xalqın itən gümanını, sarsılan inamını özünə qaytarmaq üçün, haqq işini - xalqımızın haqq mübarzəsini aparmaq, milləti, vətəni düz yola çıxarmaq üçün qayıtdığını bəyan edir. Və "bu tarixdir, bir nəfəsə oxunur" misrasıyla bu deyilənlərin artıq real bir həyat gerçəkliyi - yaşanmış bir tarix olduğunu bir daha diqqətə çəkir.

***Sən qaytardın perik düşən gümanı,***
***Sən gətirdin içimizə inamı.***
***Bu tarixdir, hamı bilir olanı,***
***Yazılanlar uca səsdən oxunur.***

Bu bənddə isə bir daha vurğulayır ki, bu olub-keçənlər, bu dediklərim "bir şanlı tarixdir ki, uca səslə oxunur". Şairə burada "uca səslə" ifadəsini həm də ona görə belə deyir ki, uca səs burada heç kəsdən çəkinmədən, ucadan oxunulan həqiqət kimi mənasına gəlir. Çünki burada daldalı-pərdəli, yalan olan heç nə yoxdur ki, onu səsini içinə qısıb astadan, yavaş səslə, utanıb-çəkinərək oxuyasan. Yəni bu bizim olan tariximizdir, yaşadığımız - gördüyümüz real həyatımızdır ki, biz bu olanları bu günə də, sabaha da uca səslə - hər kəsə bəyan etməklə çatdırmalıyıq. Həqiqəti çatdırmaq isə hər bir vicdanlı, namuslu vətəndaşın, insanın mənəvi borcu olmalıdır.

***Qurban olum torpağa da, daşa da,***
***Sən verdiyin ümid ilə yaşada.***
***Görəydik ki, "Sarı bülbül" Şuşada***
***Avazlanıb, çıxıb yasdan oxuyur.***

Qeyd edim ki, şairə bu şeiri 15 noyabr 2017-ci ildə qələmə almışdır.

**Cavan yaşında torpağa qanıyla can verən oğul**

O vaxt 2-ci Qarabağ müharibəsi olmamışdı. Ancaq müəllif bu misralarda israrla iddia edir ki, sən verdiyin ümidlə yaşayırıq - yəni ölkəmizi xaosdan xilas edib çıxardan Ümummilli Lider Heydər Əliyev xalqın ümidini, inamını özünə qaytardı və xalqı üstəlik ümidləndirdi, inandırdı ki, biz doğma Qarabağımıza qayıdacağıq. Ulu Öndər bu fikirləri dönə-dönə televiziya vasitəsilə də, əhali ilə görüşlərində də daim israrla vurğulayırdı. Qaçqınların və məcburi köçkünlərin problemini ölkənin birinci dərəcəli işi hesab edən Ulu Öndər son nəfəsinədək bu ideya, amal uğrunda mübarizə apardı və özündən sonra da bu yolun davam və inkişaf etdirilməsi üçün planlar cızdı, nəhəng ictimai-siyasi işlər gördü.

Məhz bu inam üstə çıxış edən şairə ürəklə və inamla arzulayır ki, Sarı bülbülün yasdan - ələmdən çıxıb Şuşada şən səslə, həvəslə güllərin, çiçəklərin əhatəsində dil-dil ötməsinin şahidi olaydıq. Əlbəttə ki, bu, həm də Sarı bülbülün timsalında Azərbaycan xalqının Şuşada yallı vurub şənlik etməsinin poetik izharıdır. Şairlik haqq vergisidir ifadəsi həm də şairin sözünün qaibdən şairə ötürülən hax nidası olduğunu, yəni şairin səsinin haxdan gəldiyini özündə daşıyır. Buna görədir ki, şairə şeirini aşağıdakı alqış-dualarla tamamlayır:

***Qarabağda havalanar dost ünü,***
***İlham bizə gətirəcək o günü.***
***Görəcəyik xalq qurubdu düyünü,***
***Heydər baba - deyib dastan oxuyur.***

Mahirə Nağıqızının üç il əvvəl haxdan gələn nidası 2020-ci ildə gerçəkləşdi: Qarabağdan dost-tanışlarımızın, qohum-əqrəbalarımızın, özümüzün səsimiz - ünümüz gəldi. Ali Baş Komandan kimi İlham Əliyev bizə belə bir xoş günü - dövranı gətirdi. Əlbəttə ki, "mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim" deyən ölkə prezidentinin dilindən də səsləndiyi kimi, Heydər babamızın - Ulu Öndər Heydər Əliyevin yazdığı dastan əsasında - sağlığında yazdığı azadlıq, müstəqillik, suverenlik yolunun ssenarisi əsasında xalqımız Qarabağımıza qayıtdı, Qarabağda toy-düyün qurub, şadlıq etdi. Bu gün ölkə başçısının Sərəncamı ilə "Konstitusiya və Suverenlik ili" elan olunmuş 2025-ci ildə suveren bir ölkənin sakinləri kimi biz xoşbəxtik. Ölkəmizin ərazi bütövlüyü tam təmin olunub, biz azad, müstəqil, suveren bir ölkənin tamhüquqlu vətəndaşlarıyıq.

Siyasi lirikanın bariz nümunəsi olan "Heydər baba dastanı" şeirinin müəllifi Mahirə Nağıqızının bir xoşbəxtliyi də ondadır ki, onun poetik fikir şəklində səsləndirdikləri artıq bu gün reallığa çevrilib, özünün parlaq təsdiqini tapıbdır. Yazarın qələmindəki həqiqəti görən oxucularda isə müəllifin yaradıcılığına bəslənən simpatik duyğularla şair şəxsiyyətinə olan etimad üst-üstə düşür. Bu isə oxucu nəzərində şəxsiyyət və yaradıcılıq bütövlüyünü təmin edir.